**Qobustanda çörək istehsalı müəssisəsində keçirilmiş yoxlamaya dair məlumat**

**(23 aprel 2025)**

Nəzarət tədbirləri çərçivəsində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Qobustan şəhəri, B.Qayıbov küçəsində fəaliyyət göstərən, fiziki şəxs Xankişiyev Samir Mirzağa oğluna məxsus çörək istehsalı müəssisəsində yoxlama keçirib.

Baxış zamanı istehsal müəssisəsində sanitar-gigiyenik vəziyyətin qənaətbəxş olmadığı, işçi heyətin tibbi müayinəyə cəlb olunmadığı, işçi masaların gigiyenik səthlə təmin edilmədiyi, döşəmə, divar səthlərinin asan təmizlənən və dezinfeksiyaedici maddələrin təsirinə davamlı materialla üzlənmədiyi, çirkləndiyi, müvafiq təmizlik işlərinin görülmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı qanunvericiliyin tələbinə uyğun olaraq müəssisənin fəaliyyəti nöqsanlar aradan qaldırılanadək müvəqqəti məhdudlaşdırılıb, rəhbəri barəsində inzibati tədbir görülüb.